# QARABAĞ SAVAŞI RƏNGLƏRİN İŞIĞINDA

Ölkəmizə yönəlik otuz illik beynəlxalq haqsızlığı 44 günlük müzəffər savaşla aradan qaldıran şanlı ordumuzun misilsiz şücaəti hələ də bizlərə sevinc və qürurverici hisslər bəxş etməkdədir. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə ordumuzun arxa cəbhədən - xalqımızın bir an belə azalmayan mənəviruhverici dəstəyi ilə çoxlarına xülya kimi görünən bir hərbi vəzifəni şərəflə yerinə yetirdi, desək, həqiqəti söyləmiş olarıq. Qələbənin hamıya baxış etdiyi ölçüyəgəlməz sevinc hissləri yaradıcı insanları da duyulası dərəcədə ruhlandırmışdır. Rəssam və heykəltəraşlarımızın yaratdıqları Qarabağ savaşı ünvanlı əsərlər də bunu təsdiqləyir.

Bu yeni əsərləri dəyərləndirməzdən əvvəl deyək ki, zamanında xalqımızın hərb tarixini, tuş gəldiyi problemləri özündə əks etdirən rəngkarlıq işləri nədənsə az olmuşdur. Rəssamlığın bütün növ və janrlarının geniş təşəkkül tapdığı XX əsrdə yalnız Bəhruz bəy Kəngərli yaradıcılara yönəli dilə gətirilmiş məşhur "Hər bir sənətkar öz dövrünün aynası olmalıdır!" deyiminin daşıdığı mənəviyaradıcı yükü dərindən duyaraq 1915-1918-ci illin hadisələrini - soydaşlarımızın Qərbi Azərbaycandakı dədə-baba torpaqlarından qovulmasını "Qaçqınlar" adlı qrafik silsilədə əbədiləşdirmişdir. 1988-ci ildən gündəliyə gələn Qarabağ problemi, eləcə də onun sonradan davamlı savaşa çevrilməsinin bədii görkəm alması Bəhruz bəyin "Qaçqınlar"ı qədər möhtəşəm olmasa da, müstəqillik illərində yaradılan müxtəlif sənət nümunələrini sözügedən istiqamətdə atılan müsbət addım kimi dəyərləndirmək mümkündür. Bundan əlavə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə keçirdiyi sərgi və müsabiqələrin həmin mövzunun respublika sənətkarlarının yaradıcılığında yer almasına güclü təsiri olmuşdur desək, həqiqəti söyləmiş olarıq.


Vaqif Ucatay "Şərəfli insanlar"

Əgər sovet dönəmində yerli rəssamlar tərəfindən milli ruhlu əsərlərin yaradılması Kreml ideoloqları tərəfindən bir o qədər təqdir olunmurdusa, müstəqillik dövründə bunun qarşısını alan heç bir qadağa yox idi. Odur ki, I Qarabağ savaşının heç vaxt unudulmayacaq müxtəlif hadisələri demək olar ki, dərhal bədiiləşdirilmişdir. Bu mənada tanınmış tişə ustası Xanlar Əhmədov və animasiya rəssamlığımızın klassiklərindən sayılan Nazim Məmmədovun fəaliyyətini xüsusi qeyd etmək istərdik. Xocalı faciəsinin ildönümünə əhatəli sərgi hazırlayan X.Əhmədov, ekspozisiyaya 25 plastika nümunəsi və çoxsaylı qrafik rəsm daxil etməklə, 1992-ci ilin soyuq fevral gecəsi yaşananları təsirli tutumda ictimailəşdirə bilmişdi.

N.Məmmədovun bu hadisə baş verəndən sonrakı bir neçə ildə yaratdığı əlliyə yaxın rəngkarlıq əsərinin Azərbaycan Milli İncəsənət Muzeyində sərgilənməsi paytaxtın mədəni həyatında yaddaqalan hadisədir. O vaxt rəssamın təmənnasız olaraq həmin muzeyə hədiyyə etdiyi bu sənət nümunələri vaxtaşırı sərgilənir.

Tanınmış fırça ustası Vaqif Ucatayın Qarabağ savaşına həsr etdiyi rəngkarlıq və qrafika əsərlərindəki müşahidə edilən duyulası "bədii sərtlik" ilk növbədə görüntüyə gətirdiyi motivlərdə əks olunanların reallıqdan qaynaqlanması ilə bağlıdır. Bu mənada onun elə faciənin baş verdiyi ildə yaratdığı "Xocalı" plakatının, 69 lövhədən ibarət "Bax! Gör! Unutma!" qrafik silsiləsinin və iki variantda yağlı boya ilə işlənmiş "Şərəfli insanlar" tablolarının adını xüsusi vurğulamaq lazımdır. Plakatda sinəsinə xəncər sancılmış körpənin, tabloda isə ayağını itirmiş əsgərə



sədaqət nümayiş etdirən azərbaycanlı qızın bədiiləşdirilmiş obrazları cəlbedici və yaddaqalandır. Silsilə qrafik lövhəni isə I Qarabağ müharibəsində erməni vandalizmini və vəhşiliyini öz gözləri ilə görmüş şahidlərin danışdıqlarının rəng həlli təşkil edir.

Xalq rəssamı Ağəli İbrahimovun on metrlik "Xocalı" monumental tablosu, tanınmış rəngkar Əbülfəz Fərəcoğlu, Xalq rəssamı Kamil Nəcəfzadə, Əməkdar rəssamlar Fərman Qulamov, Həsənağa Məmmədov və Asif Azərellinin ərsəyə gətirdikləri rəngkarlıq, heykəltəraşlıq və qrafika nümunələri ötən əsrdə yaradılmasına başlanılmış bədii "Qarabağnamə"yə yaddaqalan töhfələr vermişdir. Problemin dünyaya çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının işığında Xalq rəssamı Arif Hüseynovun bir il əvvəl ərsəyə gətirdiyi "Qarabağnamə - tarixin səhifələri" silsiləsinin də böyük rolu var. Bu əsərlərin əvvəlcə sərgi şəklində təqdimatını, sonra isə ayrıca kitab formasında nəşrini Qarabağ həqiqətlərinin təbliğində önəmli addım saymaq olar.


Rahib Qarayev və Zamiq Rzayev - Albert Aqarunov


Əlisəfa Əsgərov- M.İbrahimov


X.Əhmədov. Xocalı

A.Hüseynovun II Qarabağ savaşının qələbə ilə sonuclanması münasibətilə yaratdığı "Qalibiyyət" plakatlar silsiləsi (9 əsər) də bədii-estetik həllinə görə diqqət çəkir.



Arif Hüseynov "Qalibiyyət"

Məlumdur ki, I Qarabağ müharibəsi zamanı torpaqlarımızın suverenliyi uğrunda canlarından keçən oğullarımız da çox olmuşdur. İndiyə qədər həmin şəhidlərin xatirələrinin əbədiləşdirilməsini də onlara diqqətin ifadəsi sayıla bilər. Ötən illərdə Bakıda cəsur tankçı Albert Aqarunova abidənin (müəllifləri Rahib Qarayev və Zamiq Rzayev) ucaldılması, bölgələrdə xatirə komplekslərinin yaradılması da bunun təsdiqidir. Z.Rzayevin az sonra A.Aqarunovun yaddaqalan portretini işləməsi də yəhudi əsilli döyüşçünün Azərbaycan sevgisini layiqincə dəyərləndirməyin bariz nümunəsidir.

1994-cü ilin "Bişkek protokolu" münaqişə edən ölkələr arasında atəşkəsə əməl olunmasını nəzərdə tutsa da, erməni tərəfinin təxribatlarını davam etdirməsi Azərbaycan ordusunun qarşı tərəfə layiqli cavab verməsini şərtləndirdi. Bu mənada Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun (2010-cu ilin iyunu) və general-mayor Polad Həşimovun (2020-ci ilin iyulu) nümayiş etdirdiyi şücaət dərhal


Asif Azərəlli - Xocalı

yaradıcılarımızı ilhamlandırmış və onların obrazlarını əks etdirən yaddaqalan sənət əsrləri yaradılmışdır. Əlisəfa Əsgərovun M.İbrahimovun oxuduğu məktəbin qarşısında (Biləsuvar) ucaldılan qranit heykəli, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi Vüqar İmanquliyevin ona həsr etdiyi diplom işi, eləcə də gənc rəssam və heykəltəraşların (Turqay Babayev, Rəşad Əhmədov, Elnur Seyidov və b.) igidliyi dillər əzbəri olan soydaşımızın obrazını əyaniləşdirən əsərləri işıqlı heyrətamiz igidliyi ilə hər birimizə başucalığı gətirən qəhrəmanlığının yaddaqalan tərənnümü baxımından çox dəyərlidir.


Təbriz Soltanlı- general Polad Həşimov

Düşmənin "Tovuz təxribatı"na verilən layiqli cavabdan sonra el məhəbbəti qazanmış general P.Həşimovun gənc tişə ustası Elxan Zeynalov tərəfindən hazırlanan büstündə də onun mübariz ruhunun ifadəsi hiss olunmaqdadır.

Hüseyn Mirtəqəvinin ksiloqrafiya texnikasında yaratdığı qrafik obrazda da P.Həşimovun mətinliyi qabarıq duyulmaqdadır. İgid soydaşımızın işıqlı obrazı bu günə kimi də yaradıcılarımızı (Mirəhməd Seyidov, Sunay Nadirov, Əzizə Hacıyeva, Səbuhi Məmmədov) ilhamlandırmaqda, yeni-yeni sənət nümunələrinin yaranmasına təkan verməkdədir.


Rahib Qarayev- Samir Kaçayev

Şəhidlərin yaşadıqları binaların qarşısına vurulacaq lövhələr də onların xatirələrinə ehtiramın görüntüsüdür. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının 4-cü kurs tələbəsi Təbriz Soltanlının general Polad Həşimovun şəhid olmasından bir gün sonra yaratdığı portret isə gənc yaradıcının vətənpərvərlik duyğularının ifadəsi, həm də dəyərli sənət əsərinin ərsəyə gətirilməsi baxımından əlamətdardır. Gənc heykəltəraş yeni işlərindən birini II Qarabağ savaşının şəhidi Mahir Dadaşzadəyə (barelyef), digərini isə İlqar Mirzəyevə (barelyef) həsr etmişdir. Onun cəsur təyyarəçi Rəşad Atakişiyevə həsr etdiyi büst-portret də təsirli plastik həllinə görə göz oxşayır.


Jalə Əliyeva - "Vətən yaxşıdır"

Şəhid Rauf Əliyev və Əkbər Hüseynovun xatirə lövhələrində (müəllifi Rahib Qarayev) də igid döyüşçülərin mübarizliyi cəlbedici tutumda ifadə olumuşdur.

II Qarabağ savaşında səngərdə oxuduğu "Vətən yaxşıdır" mahnısı ilə ölkə ictimaiyyətinin sevimlisinə çevrilmiş şəhid Xudayar Yusifzadənin gənc tişə ustası Jalə Əliyeva tərəfindən hazırlanmış portreti də çox diqqətçəkəndir. Döyüşçünün portretini not vərəqi ilə əlaqəli təqdim edən müəllif, son nəticədə, kompozisiyanın xeyli təsirli olmasını şərtləndirmişdir.

Sənətsevərlərə "Qarabağ", "Milli qəhrəmanlar", "A.Aqarunovun portreti", "Xo-



1.


2.



4.



3.

**1. Aysel Əliyeva. “Şuşa”**
**2. Rahib Qarayev. “Əliyev Rauf”**
**3. Rahib Qarayev. “Əkbər Hüseynovun xatirə lövhəsi”**
**4. Təbriz Soltanlı. “İlqar Mirzəyevin xatirə lövhəsi”**

calı faciəsi”, “20 Yanvar” əsərləri ilə yaxşı tanış olan Ülkər Əbülfətin Polad Həşimovun yapışqan və zərin qarışığı ilə yaratdığı sənət nümunəsində də igid generalın obrazı yaddaqalan tutumu ilə maraq doğurur.

Qarabağ savaşının bu günlər qələbə ilə nəticələnməsinə güclü təsir göstərmiş 2016-cı ilin Aprel döyüşləri də yaradıcılarımızın diqqətindən yayınmamışdır. Həmin döyüşlərdə şəhid olmuş gənc heykəltəraş Samir Kaçayevin obrazı çox qısa müddət ərzində müxtəlif janrlı sənət əsərlərində əbədiləşdirilmişdir. Bu mənada onun sənət dostları Rahib Qarayev və Zamik Rzayevin işlərini (portret, xatirə lövhəsi və məzarüstü abidə) xüsusi vurğulamaq gərəkdir.

2020-ci ildə Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə “Sənətşünaslığın təbliği” İctimai Birliyinin 2020-ci ildə keçirdiyi “Aprel döyüşləri və şəhid-heykəltəraş Samir Kaçayev” sərgi-müsabiqəsi də bu yöndə ibrətamizdir. Respublikanın ali təhsil ocaqlarının tələbələri arasında keçirilən sənət yarışmasında gənc yaradıcılar vaxtsız dünyasını dəyişmiş həmyaşıdlarının xatirəsinə layiqli töhfə verməyə nail olublar. Bu mənada Mirvari Ələsgərovanın (Gəncə), Təbriz Soltanlının (Bakı), Aysel Fətullazadənin (Lənkəran), Türkan Əsədova, Elnur Seyidov və Sunay Nadirovun (Naxçıvan) ərsəyə gətirdikləri əsərlərin adını çəkmək istərdik.

Düşmənin bu ilin sentyabrında baş tutan təxribatına ordumuzun verdiyi layiqli cavablar elə zamanında yaradıcılarımızın müxtəlif nəsillərinin nümayəndələrinə ilham vermiş, müharibə qəhrəmanlarına və şəhidlərə həsr olunmuş maraqlı əsərlər yaradılmışdır. Onların arasında ruhumuzun vətəni sayılan Şuşaya həsr olunmuş əsərlərin çoxluğu diqqəti cəlb edir. İstedalı fırça ustası Vüqar Əlinin ərsəyə gətirdiyi “Zəfər” (rəngkarlıq) və “Şuşa, sən azadsan!” (plakat) əsərlərində müəllifin noyabr ayında döyüş meydanında baş verənlərdən qürur hissi keçirdiyi hiss olunmaqdadır. Gənc rəssam Aysel Əliyevanın işlədiyi yığcam tutumlu, dərin məzmunlu “Şuşa”, “Azad Qarabağ”, “Erməni məkri” və “Stepan get, Xan kəndinə gəlir!” plakatlarının bədii tutumunda da müəllifin qələbə sevincinə bələndiyi qabarıq duyulur. Müəllifin forma-biçim və rəng təzadları ilə əldə etdiyi məna-məzmun yükü kifayət qədər cəlbedici və təsirlidir. Heykəltəraş R.Qarayevin yaratdığı tunc barelyefdə Şuşanın timsalında işğaldan azad olunmuş Qarabağın yaddaqalan obrazı yaradılmışdır.

Qarabağ savaşı və Zəfər günlərinin hər birimizə qürur verən mənəvi yükünün bu günlər sənət nümunələrində əks olunması təqdirəlayiqdir. Qənaətimizcə, tarixi qələbənin ölçüyəgəlməzliyini özündə hifz edəcək möhtəşəm əsərlərin yaradılması isə hələ irəlidədir...

**Ziyadxan Əliyev**
Əməkdar incəsənət xadimi, professor